

Sehranə KASİMİ
AMEA Memarlıq və İncəsənət İnstitutunun
böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru

# BALAKƏNDƏ HAYLA HAVASI

*bu gün tamburçular da var, haylaçılar da...*

Balakəndə bəlkə də, ibtidai dövrdə, elə ilk insanın yarandığı, məskunlaşdığı dövrdə tənbur - iki simli sadə musiqi aləti mövcud olubdur.

Tənbur Uzaq Şərqdən Qərb ölkələrinə qədər böyük bir coğrafi ərazidə cürbəcür formada, müxtəlif adlarla yayılmış və bu gün də Orta Asiya türk xalqları tərəfindən çalınmaqdadır.

Balakən tamburu - türk dünyasının qədim musiqi aləti olaraq bölgədə geniş yayılmış bir musiqi alətidir. Bölgədə təkcə tambur deyil, həm də saz ifaçılığı, aşıq sənəti inkişaf etməkdədir. Türk dünyasında yaylı tambur, Təbriz tənburu, Şirvan tənburu adı ilə də məlumdur. Lakin, 2-3 simli Balakən tamburunun daha qədim olmasına aid dəlillər var. Bu da alətin daha sadə, simlərinin az olması ilə bağlıdır və tambur musiqisinin müşayiət etdiyi hayla söylənməsi də bizim ilk seir nümunəsi saydığımız bayatıdan ibarətdir. Burda tambur alətinin çox məşhur ifaçısı aşıq Sənəm kimi tanınır; (Azərbaycan Aşıqlarının I Qurultayında yeganə qadın iştirakçı - 1928-ci il, 5-8 may). Ötən əsrin 70-ci illərində dünyasını dəyişmiş "haylaçı Sənəm"kimi tanınan el sənətkarı aşıq Sənəmə (xalq yazıçısı Əzizə Cəfərzadənin yazdığı kimi) el arasında "erkək Sənəm" deyərmişlər. Bu ayama təsadüfi deyil. Deyilənə görə, Sənəmi istədiyinə verməyiblər, başqa bir rəvayətə görə isə, Sənəmin sevgilisi o vaxt müharibəyə gedib qayıtmayıb. Elə o vaxtdan da Sənəm at minib, kişi paltarı geyib. Bunun üçün də ona "erkək Sənəm" deyiblər. Sənəm Balakənin Gülüzən kəndində doğulub, ömrünün axırınacan da orada yaşayıb:

*Mən aşıq gül üzənə,*
*Şeh düşüb gül üzənə,*
*Sənəmi görmək istəsən*
*Gəlginən Gülüzənə.*

*Danış, damburum, danış*
*Təki sən mənnən barış.*
*Açıban qollarını,*
*Gəlib boynuma sarış.*

*Oxuyan Sənəmdimi?*
*Gözlərində nəmdimi?*
*Görənlərdən xəbər al,*
*Əvvəlki Sənəmdimi?*

*Damburun üç siminə,*
*Düşmüşəm həvəsinə.*
*Bir neçə hayla deyim*
*Yarımın həvəsinə.*

Əslində, "hayla" sözü özü bir çağırışdır. O tərəflərdə, elə Azərbaycanın çox yerində "hayla" - "çağır" sözünün bir şəklidir.

Haylalardakı axıcılıq insan ruhuna rahatlıq gətirir.

*Damburun yeddi bəndi,*
*Bazardan aldım qəndi,*
*Kor olaydı gözlərim*
*Gördü, ürəyim yandı.*

Balakəndə daha bir haylaçı, el sənətkarı "Yetim Ərəbiddin"dir. Balakən camaatı Qazma kəndində yaşayan Yetim Ərəbiddinin xətrini çox istəyir, onun ocağına yığışaraq dediyi sözləri, bədahətən söylədiyi haylalara qulaq kəsilirlər.

Haylaçı Ərəbiddin arabir öz xanımına üz tutaraq, görək zarafatla nə deyir:

*Arabada oxdumu?*
*Burda insan yoxdumu?*
*Qarı, çıxart səsini,*
*İsti çayın yoxdumu?*

Bu gün tambur ifaçılarını hamı tanıyır. Yetim Ərəbiddin, İbadulla Qarayev, Dabaxov Nizami, Dabaxov Rövşən el sənətkarı kimi tanınırlar. Ruhları şad olsun - dünyasını dəyişənlərdən isə Ata Bilal, Kriksom Mirtuzəli, Dabağ Mehralı, xanım Dabax Zalxa, Kor Ata, Zeynalabid, Səkinə Teyyub qızı, Ata Kamal (haylaçı), Dabax Rəcəb (mey ifaçısı - mey - bu bölgədə balaban kimidir), Miralı Mazan (zurna ifaçısı), Miralı Mühiddin (mey ifaçısı), Qaz Zeynalabid (damburbənd və ifaçı), Ziyov kişi, Doka Əziz (qoşa nağara), Əlisoltan kişi (zurnaçı), Mirəli Molla Musa (tambur çalan - Balakən şəhər Tarix - diyarşünaslıq Muzeyinin direktoru Xəlifə Mirəliyevin atasıdır), İska Ramazan (haylaçı), Sayıloğlu Məhəmməd (tamburbənd, haylaçı), Sayıloğlu Şəmsəddin (tamburbənd, haylaçı), Mesed Xizriqızı (haylaçı), Ayşə İsmayıl qızı (haylaçı), Xalayev Əli (haylaçı), Qaralov Əli (haylaçı), Eyvaz (mey, zurna çalan) və s. adlarını çəkə bilərik.

Balakən Şəhər Tarix - Diyarşünaslıq Muzeyinin direktoru Xəlifə Mirəliyevin əlindəki tambur Sayıloğlu Şəmsəddinin düzəltdiyi tamburdur.

*Damburu çalan əllər,*
*Xırmana gedən vəllər.*
*Mən daha gedər oldum*
*Salamat qalın ellər.*

*Damburun qolu uzun,*
*Qoluna mərcan düzüm,*
*Yarım var, uzaqdadı,*
*Mən buna necə dözüm?*

Haylaçıların layiqli davamçıları indi də az deyil. Onlardan biri də şair-publisist Tahirə Sultandır. Bədii yaradıcılığında onun qoşduğu haylalara da rast gəldim. Özünü haylaçı Sənəmin davamçısı sayır.

*Ətir ara, gülə var*
*Gəl könlünü gülə ver,*
*Aradığın hər nə var*
*Yar bağında güldə var.*

*Gülüm gülüm güldədi,*
*Mənim gülüm güldədi*
*Mən yanaraq kül oldum,*
*Özgələrsə dildədi.*

*Ormandakı şamdımı?*
*Gün keçir axşamdımı?*
*Yollarında bitmişəm,*
*Ürəyinə damdımı?*

*Bayraqdaram, qəlbdaram,*
*Qəlb evim daram - daram*
*Tələs, ömürdən gedir*
*Mən ki, sadiq bir yaram.*

*Ayaq bas dam üstünə,*
*Gülab tök cam üstünə*
*Yanıram, odlanıram*
*Gələn yoxdu tüstümə*

*Fincana şəkər saldım*
*Oxuma təkər saldım*
*Önür boyu işlədim*
*Artmadım, nökər qaldım.*

*Avazına bəmi qat.*
*Hal əhlisən, dəmi qat,*
*Allahdan gələn haqdı*
*Bəxtin yatdı, sən də yat.*

*Güllərin yar havası*
*Dillənir saz havası*
*Canında yanğı varsa,*
*Od qoyar söz havası*

*Damburun iki simi,*
*Sözlə açar tilsimi*
*Düzünü gəl sən söylə*
*Mən söylərəm tərsini.*

Əgər Haylaçı Sənəmin haylalarında nakam məhəbbətdən söz deyilirsə, Tahirə Sultanın qoşmalarında, haylalarında da sazın, tamburun yanğılı səsindən, zamanın gərdişindən bəhs olunur.

◆



Balakənin el sənətkarı Mahir Sayıloğlunun düzəltdiyi tambur aləti.